# Səyyar qəbullar

İnsan məfhumu mövcuddursa, yaşanılan zaman, ömür çərçivəsində həyati problemlərin olması labüddür. Həyatda yaşam tərzi demək olar ki, tam mənada hamar, yeni problemsiz olmur və hər ailənin, hətta hər kəsin özünəməxsus yaşam çətinlikləri olur. Bu problemlərin ümumiləşdirilməsi isə bəzən yaşadığımız zamanın mövcudluğundan irəli gəlir. Nə yaxşı ki, problemləri həll etmək mümkünsüz deyil. Hər bir problem aid olduğu idarə və müəssisə, qurumlar tərəfindən həll olunur və insanlar öz yaşam tərzlərinə davam edirlər. Ən başlıcası isə odur ki, insan amili daima nəzər-diqqətdə saxlanıla.


İmamlı kəndi.




Seyidqışlaq kəndi.



Məlum olduğu kimi, rayonumuzda ayrı-ayrı qəsəbə və kəndlərdə səyyar qəbulların keçirilməsi artıq ənənə şəklini almışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonumuzun qəsəbə və kəndlərində sakinlərlə görüşlər keçirir və onların qarşılaşdıqları problemlərin həll olunmasını diqqət mərkəzində saxlayır.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.


Bunud kəndi.


Bayramkoxalı kəndi.

Sentyabr ayında rayonumuzun İmamlı, Seyidqışlaq, Bunud və Bayramkoxalı kəndlərində səyyar qəbullar keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndələrinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

# Şəhid ailəsi ilə görüş

Rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbərləri tərəfindən Vətən müharibəsi şəhidi Zeynallı Əsəd Ərziman oğlunun ailəsi ziyarət edilmişdir. Ziyarətçilər tərəfindən onları narahat edən məsələlər öyrənilmiş, həlli nəzarətə götürülmüş, mənəvi-psixoloji söhbətlər aparılmışdır. Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



# Qarabağ Azərbaycandır!

Ölkəmizdə Bilik günü məktəblərdə dərslərin başladığı gün qeyd edilir. 2004-cü ilə qədər həmin gün sentyabrın 1-nə təsadüf edirdi. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanı ilə ölkəmizin bütün təhsil müəssisələrində dərslərin sentyabrın 15-dən başlanması qərara alınmış, beləliklə həmin gün Bilik Günü elan edilmişdir.

Bu il də Bilik günü ilk dərslər bütün siniflərdə “Qarabağ Azərbaycandır!” sərlövhəsi ilə keçirilmişdir. Ermənilərin törətdikləri son iğtişaşlar zamanı düşmən tərəfindən ağır itkilər olmasına rəğmən bizim də şəhadətə qovuşan şəhidlərimiz var. Onlar Vətən uğrunda döyüşmüş, tarixin yaddaşına qəhrəman kimi yazılaraq əbədiyyətə qovuşmuşlar. Məhz buna görə də bütün məktəblərdə, həmçinin siniflərdə ilk dərslər onların qəhrəmanlığına həsr olunmuşdur. Dərslərin adı isə: - “Qarabağ Azərbaycandır!”, - olmuşdur.

# Qəbələdə yeni məktəb binası istifadəyə verilmişdir

15 sentyabr 2022-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 30 iyul 2020-ci il tarixli sərəncamına əsasən tikilmiş Qəbələ rayon Zarağan kənd 1 nömrəli tam orta məktəbin binasının açılış mərasimi keçirilmişdir. Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini İdris İsayevin, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin, kənd ictimaiyyətinin, məktəbin müəllim və şagird kollektivinin, KİV nümayəndələrinin iştirak etdiyi tədbirdə öncə sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətində törətdiyi genişmiqyaslı təxribatına cavab olaraq ordumuz tərəfindən həyata keçirilən əməliyyatlar zamanı şəhadətə yüksələn şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən Elm və Təhsil nazirinin müavini ölkəmizdə təhsilə göstərilən diqqət və qayğıdan, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi üçün həyata keçirilən mühüm tədbirlərdən söz açmışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev isə çıxışında ulu öndər Heydər Əliyev tərəfindən təhsilə göstərilən diqqət və qayğının bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, rayonda gedən sosial-iqtisadi inkişafdan bəhs edərək, son illər rayonumuzda 40-a yaxın məktəb binasının və məktəbəqədər təhsil müəssisəsinin tikilməsini qeyd etmiş, yeni tədris ilinin başlanması münasibətilə məktəb kollektivini və valideynləri təbrik etmişdir. Daha sonra məktəbdə yaradılan şəraitlə tanış olunmuşdur.



